


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 52 (24.189)

*20 mart 2023-cü il, bazar ertəsi*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Azərbaycan xalqı haqlı olaraq qürur hissi ilə yaşayır

### *Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Tərtər rayonuna səfər ediblər*

### *Dövlətimizin başçısı Talış-Tapqaraqoyunlu-Qaşaltı sanatoriyası avtomobil yolunun açılışında iştirak edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva martın 18-də Tərtər rayonuna səfər ediblər.

Dövlətimizin başçısı əvvəlcə Talış-Tapqaraqoyunlu-Qaşaltı sanatoriyası avtomobil yolunun açılışında iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, Prezident İlham Əliyev tərəfindən 2021-ci il oktyabrın 3-də Tərtər rayonunda təməli qoyulan və 4 yaşayış məntəqəsini birləşdirən yeni avtomobil yolunun uzunluğu 22 kilometrdir. Talış-Tapqaraqoyunlu-Qaşaltı sanatoriyası yeni avtomobil yolunun eni 19 kilometrlik hissədə 9 metr, 3 kilometrlik hissədə isə 6 metr təşkil edir.



Bu yolun inşası layihəsi çərçivəsində İnçaçay üzərində uzunluğu 84 metr olan avtomobil körpüsü tikilib. Üçaşırımlı körpünün eni 14,5 metrdir. Körpü 9 bal seysmiklik nəzərə alınmaqla inşa edilib.

Yolda aparılan tikinti işləri inşaat norma və qaydalarının tələblərinə uyğun yüksək keyfiyyətlə həyata keçirilib. Layihə üzrə yolboyu avtobus dayanacaqları inşa edilib, hərəkətin normal təşkili üçün digər zəruri infrastruktur yaradılıb.

Prezident İlham Əliyevə Tərtər rayonunun Talış kəndinin daxili yollarının tikintisi layihəsi barədə də məlumat verildi. Bildirildi ki, kənddaxili yolların ümumi uzunluğu 4,2 kilometrdir.

Qeyd edək ki, Tərtər rayonunun işğaldan azad edilmiş Talış, Goranboy rayonunun Tapqaraqoyunlu və Qaşaltı Qaraqoyunlu kəndlərini keçməklə Naftalan şəhərinə doğru uzanan yeni yolun inşası yolboyu yerləşən yaşayış məntəqələrinin sakinlərinin rahat gediş-gəlişi ilə bərabər, bölgənin sosial-iqtisadi inkişafına töhfə verəcək. Yeni yol, həmçinin Tərtər şəhəri ilə yanaşı, alternativ olaraq Naftalan şəhərindən də bu istiqamətdə rahat və təhlükəsiz hərəkəti təmin edəcək.

## Suqovuşan qəsəbə tam orta məktəbində yaradılan şəraitlə tanışlıq





Martın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva Tərtər rayonunun Suqovuşan qəsəbə tam orta məktəbində yaradılan şəraitlə tanış olublar.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov görülən işlər barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdi.

Qeyd edək ki, 2022-ci il martın 20-də dövlətimizin başçısı və birinci xanım Suqovuşana səfərləri çərçivəsində qəsəbədəki yararsız vəziyyətdə olan 144 şagird yerlik tam orta məktəbin binasında olmuş, təhsil müəssisəsindəki vəziyyətlə maraqlanmışdılar. Prezident İlham Əliyev məktəb binasının əsaslı təmirinə başlanılması və işlərin yüksək səviyyədə həyata keçirilməsi ilə bağlı tapşırıqlar vermişdi.

Diqqətə çatdırıldı ki, ərazisi bir hektar olan məktəbdə 12 sinif otağı var. Şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün sinif otaqları zəruri dərs vəsaitləri ilə təchiz edilib. Təhsil ocağında, həmçinin informatika kabineti, kitabxana, iki laboratoriya, 72 nəfərlik akt zalı və yeməkxana var. Məktəbdə internet, mebel-inventar və digər zəruri avadanlıqlar müasir tələblər səviyyəsindədir. Təhsil ocağının həyətində abadlıq işləri görülüb, futbol, basketbol və açıq oyun meydançaları yaradılıb.

Qeyd edək ki, Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam edən hərbi təcavüzü nəticəsində işğal olunan rayonların təhsil infrastrukturu da tamamilə dağıdılıb. İşğaldan azad edilən ərazilərdə dağıdılan təhsil infra_strukturunun bərpası istiqamətində Prezident İlham Əliyevin müvafiq sərəncamları və tapşırıqları ilə hazırda mühüm işlər görülür. Bu, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda əksini tapıb. Tədbirlər Planına əsasən Elm və Təhsil Nazirliyinə 2022-2026-cı illərdə ərazi planlaşdırma sənədlərinə uyğun olaraq yaşayış məntəqələrində təhsil müəssisələrinin tikintisi və bərpası ilə bağlı təkliflərin hazırlanması tapşırılıb.

Sənəddə qeyd edilib ki, Şuşa rayonunda 7, Ağdam rayonunda 29, Füzuli rayonunda 23, Zəngilan rayonunda 21, Kəlbəcər rayonunda 30, Laçın rayonunda 21, Qubadlı rayonunda 16, Cəbrayıl rayonunda 25, Xocavənd rayonunda 20, Tərtər rayonunda (Suqovuşan və Talış kəndləri daxil olmaqla) 5 məktəbəqədər və ümumi təhsil müəssisəsinin tikintisi və bərpası nəzərdə tutulur.

## Suqovuşan qəsəbəsində yeni yaşayış məhəlləsinin təməli qoyulub

Martın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva Suqovuşan qəsəbəsində inşa olunacaq yaşayış məhəlləsinin təməlqoyma mərasimində iştirak ediblər.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına məhəllə barədə məlumat verdi.

Bildirildi ki, ümumi sahəsi 2 hektardan çox olan məhəllədə 25-i birotaqlı, 80-i ikiotaqlı, 75-i üçotaqlı, 10-u isə dördotaqlı olmaqla, ümumilikdə, 190 mənzil inşa ediləcək. Məhəllədə, həmçinin futbol, idman və uşaq meydançaları, transformator yarımstansiyası və digər zəruri infrastruktur obyektlərinin tikintisi nəzərdə tutulur. Burada, həmçinin geniş yaşıllıq zolaqları da salınacaq.

Prezident İlham Əliyev yaşayış məhəlləsinin təməlini qoydu.



## Suqovuşan su anbarının və ondan çıxan magistral su kanalının əsaslı təmiri və turizm obyektlərinin tikintisi ilə tanışlıq



Martın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva Suqovuşan su anbarının və ondan çıxan magistral su kanalının əsaslı təmiri, su anbarı boyunca yaradılan turizm infrastruktur obyektlərinin tikintisi ilə tanış oldular.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Birinci Dövlət Proqramı çərçivəsində əsas infrastruktur obyektlərinin təmir-bərpa və yenidənqurma layihələri çərçivəsində Suqovuşan su anbarının və ondan çıxan magistral su kanalının əsaslı təmirinə başlanılıb. Hazırda su anbarının divarlarına beton örtüyün vurulması, oradakı bütün avadanlıqların əsaslı təmiri həyata keçirilir, magistral kanalda zəruri işlər görülür. Eyni zamanda Suqovuşan su anbarı boyunca ilkin turizm infrastruktur obyektlərinin yaradılmasına başlanılıb. Burada Turizm İnformasiya Bürosu inşa olunur, sahilboyu park salınır, avtodayanacaq tikilir.

Qeyd edildi ki, Qarabağ iqtisadi rayonunda "Xaçınçay", "Köndələnçay-1", "Köndələnçay-2", "Köndələnçay-3" su anbarlarında paralel olaraq aparılan bərpa, əsaslı təmir və yenidənqurma işlərinin bu ilin sonunadək başa çatdırılması nəzərdə tutulur.

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Talış kəndində görülən işlərlə tanış oldular

### *Dövlətimizin başçısı kənddə Novruz tonqalını alovlandırıb və Azərbaycan xalqını bayram münasibətilə təbrik edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva martın 18-də Tərtər rayonunun Talış kəndində görülən işlərlə tanış oldular.

Dövlətimizin başçısı və birinci xanım əvvəlcə Talış kəndində Xatirə daşına baxış keçirdilər.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu 2020-ci il oktyabrın 3-də bu strateji ərazini düşməndən azad edib. Talış kəndində yüksək nöqtələrdən birində bu ərazinin işğaldan azad olunduğu gün Müzəffər Ali Baş Komandan tərəfindən paylaşılan tvitin mətninin həkk olunduğu Xatirə daşı yerləşdirilib.





Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma Talış kəndinin Baş planı əsasında görülən işlər barədə məlumat verdi.

Xatırladaq ki, dövlətimizin başçısı 2021-ci il oktyabrın 4-də Talış kəndindəki Bayraq meydanında Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb. İşğaldan azad edildikdən sonra Azərbaycan Prezidentinin tapşırıqları əsasında Talış kəndində tikinti-bərpa işləri aparılıb, yeni evlər inşa olunub, zəruri infrastruktur yaradılıb. Kənddə aparılan təmir-bərpa işlərinin birinci mərhələsi çərçivəsində Bayraq meydanında abadlıq işləri görülüb. Talış kəndinin yüksək nöqtələrindən birində sakinlərin asudə vaxtlarını səmərəli keçirmələri üçün istirahət guşəsi və seyr meydanı tikilib.

Görülən işlər çərçivəsində 10 qeyri-yaşayış və ictimai iaşə obyekti də bərpa olunub və tamamilə yenidən qurulub. Bu obyektlərin ərazisində abadlıq işləri görülüb. Bunlardan biri də inzibati binadır.

Dövlətimizin başçısı və birinci xanım inzibati binada yaradılan şəraitlə tanış oldular.

Mövcud ikimərtəbəli inzibati bina əsaslı təmir edilib, dam örtüyü sökülərək yenidən qurulub. İnzibati binanın qarşısındakı ərazidə kənd meydanının bərpası həyata keçirilib və burada geniş yaşıllaşdırma işləri aparılıb. Binanın bütün kommunikasiya sistemləri yenidən qurulub. İnzibati bina yanğın siqnalizasiya, rabitə və videomüşahidə sistemləri ilə təchiz edilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Talış kəndindəki uşaq bağçasında yaradılan şəraitlə də tanış oldular. Uşaq bağçasının birmərtəbəli binası da əsaslı təmir edilib. Bütün kommunikasiya sistemləri yenidən qurulub və bina yanğın siqnalizasiya, rabitə, videomüşahidə və fövqəladə hal xəbərverici sistemləri ilə təchiz edilib. Binanın daxili hissəsi bütün lazımi texniki xidmət avadanlığı ilə təchiz olunub. Həyətyanı ərazidə uşaqlar üçün rezin örtüklü oyun meydançası və iki söhbətgah inşa olunub. Bir sözlə, burada balacaların vaxtlarını maraqlı və səmərəli keçirmələri üçün hərtərəfli şərait yaradılıb.

Talış kəndindəki 78 şagird yerlik məktəb binası ilə tanışlıq zamanı məlumat verildi ki, ikimərtəbəli binanın da bərpası və yenidən qurulması həyata keçirilib. Dam örtüyü tamamilə yenilənib, kommunikasiya sistemləri yenidən qurulub. Bina yanğın siqnalizasiya, rabitə, zəng, videomüşahidə sistemləri ilə təchiz edilib. Təhsil ocağının binasının birinci və ikinci mərtəbələrində sinif, tibb və müəllimlər otaqları, mansardda isə akt zalı və kitabxana yerləşir. Məktəbin həyətyanı ərazisində süni ot örtüklü futbol və idman meydançaları yaradılıb.

Dövlətimizin başçısı Talış kəndində Novruz tonqalını alovlandırdı və Azərbaycan xalqını bayram münasibətilə təbrik etdi.

**Prezident İlham Əliyevin Novruz bayramı münasibətilə Azərbaycan xalqına müraciəti**

– Əziz bacılar və qardaşlar.

Sizi qarşıdan gələn Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm.

Üçüncü dəfədir ki, Azərbaycan xalqına Novruz təbriklərimi doğma Qarabağ diyarından deyirəm. Bu, böyük xoşbəxtlikdir. Bu xoşbəxtliyi bizə bəxş edən qəhrəman şəhidlərimizin əziz xatirəsini bu gün biz hörmətlə yad edirik. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Bu xoşbəxtliyi bizə bəxş edən qəhrəman Azərbaycan hərbçilərini buradan səmimiyyətlə salamlayıram. Onların canı-qanı bahasına biz doğma torpaqlarımıza qayıtmışıq.

İkinci Qarabağ müharibəsi dövründə bütün Azərbaycan xalqı bir yumruq kimi birləşib. Bütün Azərbaycan xalqını bir daha salamlayıram. Bütün Azərbaycan xalqına yeni-yeni uğurlar, yeni qələbələr arzulayıram!

Otuz ilə yaxın müddət ərzində torpaqlarımız işğal altında idi. Ermənistan xalqımıza qarşı etnik təmizləmə siyasəti apardı. Yüz minlərlə azərbaycanlı öz doğma torpaqlarından didərgin salınmış, qaçqın, köçkün vəziyyətinə düşmüşdür. Xalqımıza qarşı soyqırımı törədilmişdir, ədalətsizlik törədilmişdir, hərbi cinayətlər törədilmişdir. Biz bunu heç vaxt unutmayacağıq. Biz bunu heç vaxt unutmamalıyıq.

Biz otuz il ərzində işğalla bağlı bütün beynəlxalq təşkilatlarda öz haqq səsimizi ucaltmışdıq. Ancaq, əfsuslar olsun ki, bizim sözümüzə reaksiya verən qurum tapılmadı. Əksinə, Qarabağ münaqişəsi ilə məşğul olmuş vasitəçilər məsələni həll etməyə yox, dondurmaq üçün səylər göstərirdi. İndi İkinci Qarabağ müharibəsindən keçən iki il yarım ərzində əldə edilmiş yeni məlumatlar bunu bir daha təsdiqləyir.

Biz öz haqqımızı, öz hüquqlarımızı döyüş meydanında bərpa etdik. Qırx dörd gün ərzində mənfur düşməni torpaqlarımızdan qovduq və Qarabağda Azərbaycan Bayrağını ucaltdıq. Bu, çoxəsrlik Azərbaycan tarixinin ən parlaq səhifəsidir. Qırx dörd gün ərzində Azərbaycan xalqı ordumuzun arxasında dayaq kimi, yumruq kimi birləşdi. Biz işğal edilmiş torpaqları qan tökərək azad etdik.

Əfsuslar olsun ki, bu gün İkinci Qarabağ müharibəsinin ibrət dərsi Ermənistana hələ ki, dərs olmayıb. Çünki biz görürük ki, Ermənistanda revanşist qüvvələr baş qaldırıb. Ermənistanda yenə də Azərbaycana qarşı, Azərbaycan torpaqlarına qarşı ərazi iddiaları qaldırılır. Biz Ermənistan rəhbərliyini bu çirkin əməllərdən çəkindirmək üçün xəbərdar edirik. Ermənistanın arxasında dayanan bəzi ölkələri də bax buradan – azad edilmiş Talış kəndindən xəbərdar edirik ki, əl çəkin bu çirkin əməllərdən. Azərbaycan dövlətinin, xalqının iradəsinə heç bir kənar qüvvə təsir edə bilməz.

Otuz il ərzində Ermənistan və onun havadarları, onun arxasında duran müttəfiqləri bizi haqq işimizdən çəkindirmək üçün müxtəlif imkanlardan, müxtəlif vasitələrdən istifadə etməyə çalışırdılar, bizi mənasız danışıqlarla yormaq istəyirdilər, bizi işğalla barışdırmaq istəyirdilər.

İşğal dövründə Ermənistanla əməkdaşlığa başlamaq üçün nə qədər səylər göstərilmişdir. Azərbaycan xalqı və Azərbaycan dövləti güclü iradə göstərərək bütün bu cəhdləri dəf etmişdir. Çünki bizim işimiz haqq işidir. Mən işğal dövründə dəfələrlə deyirdim ki, əgər məsələ sülh yolu ilə həll olunmasa, biz müharibə yolu ilə öz doğma torpaqlarımızı işğalçılardan azad edəcəyik. Görün Ermənistan rəhbərliyi nə qədər azğınlaşmışdır ki, "Qarabağ Ermənistandır və nöqtə" sözlərini deyərək Azərbaycan xalqının haqlı hüququnu əlimizdən almaq istəyirdi. Əfsuslar olsun ki, Ermənistanın arxasında dayanan qüvvələr, o cümlədən ovaxtkı Minsk qrupuna həmsədrlik edən ölkələr bu bəyanata heç bir reaksiya verməmişdilər. İndi Azərbaycan öz doğma torpaqlarını azad edəndən sonra görün, bizə qarşı nə qədər ədalətsiz addımlar atılır, nə qədər çirkin əməllər törədilir. Erməni havadarları, Ermənistanın işğalçılıq siyasətinə şərik olan ölkələr bizə qarşı informasiya müharibəsi elan ediblər. Bəzi ölkələrdə Azərbaycanın daxili işləri ilə bağlı hansısa konfranslar, simpoziumlar təşkil edirlər. Bəzi ermənipərəst ölkələr dünya xəritəsində olmayan, Azərbaycanın ərazisində mövcud olmayan dırnaqarası "Dağlıq Qarabağın müstəqilliyini" tanıyırlar. Bu, nə deməkdir? O deməkdir ki, işğal dövründə bütün bu qüvvələrin yeganə amalı bu işğalı əbədiləşdirmək idi. Bu münaqişəni həll etmək yox, dondurmaq idi.

İkinci Qarabağ müharibəsi dövründə bizə qarşı nə qədər təzyiqlər oldu, Ermənistana nə qədər yardımlar göndərildi. Hər gün silahlarla dolu bir neçə yük təyyarəsi göndərilirdi, xarici ölkələrdən muzdlular göndərilirdi. Ermənistanın müttəfiqləri bizi müxtəlif yollarla dayandırmağa çalışırdılar. Heç kim bizim qabağımızda dura bilmədi. Mən demişdim ki, öldü var, döndü yoxdur, ya Qarabağın azadlığı, ya ölüm! Heç kim bizim qabağımızda dura bilmədi, bu gün də dura bilmir, sabah da dura bilməyəcək. Əgər kimsə fikirləşir ki, bizə qarşı cızılmış çirkin planlar həyata keçə bilər, səhv edir. Bizə qarşı hər bir çirkin plana bizim güclü iradəmiz, güclü siyasətimiz, müzəffər Ordumuz cavab verəcək.

"Qarabağ Ermənistandır və nöqtə", – deyən Ermənistan rəhbərliyi bu gün görün nə deyir. Bu gün deyir ki, bizə imkan verin 29 min kvadratkilometr ərazidə biz yaşayaq. Bunu işğal dövründə niyə demirdi? İşğal dövründə nə üçün bizim işğal edilmiş bütün torpaqları dırnaqarası "Dağlıq Qarabağ respublikası" adı altında birləşdirməyə cəhd göstərmişdilər, kitablar dərc edilirdi. Bu çirkin əməllərə, bu qanunsuz əməllərə göz yuman beynəlxalq təşkilatlar, bəzi ermənipərəst ölkələr nə üçün o vaxt Ermənistana irad tutmurdular? Biz nə qədər ikili standartlarla üzləşməliyik? Biz nə qədər riyakarlıqla üzləşməliyik?

İndi biz öz torpağımızı, beynəlxalq birlik tərəfindən tanınan Azərbaycan ərazilərini güc tətbiq edərək azad etmişik, BMT Nizamnaməsinə uyğun şəkildə öz ərazi bütövlüyümüzü təmin etmişik, düşməni qovmuşuq, Ermənistan ordusunu məhv etmişik, diz çökdürmüşük. Bu bizim haqlı vəzifəmizdir. Bu gün biz qurub-yaradırıq. O cümlədən burada, Talış kəndində, Suqovuşan qəsəbəsində, Hadrutda, Şuşada, bütün başqa azad edilmiş torpaqlarda qurub-yaradırıq. Ermənistan bu əraziləri viran qoyub, talan edib. Otuz il ərzində daşları bir-bir söküb həm Ermənistanda, həm də ki, Ermənistanın qonşu ölkəsində bazarlarda satdırıb. Biz isə qurub-yaradırıq.

Görün Talış kəndinin yenidən qurulmasına başlanmasından hələ bir il keçməyib. Artıq Talış kəndinə 20 ailə qayıdıbdır və 180-ə yaxın ailə qayıdacaqdır. Bu gündən bir il keçmədən Talış kəndində 180-ə yaxın ailə yaşayacaq. Bu ailələr üçün bütün imkanlar

Ardı 3-cü səhifədə

yaradılıb. İndi hər kəs görə bilər nə gözəl evlər, məktəb, uşaq bağçası, ictimai binalar tikilib, məşğulluq üçün şərait yaradılıb. Biz qurub-yaradan xalqıq. Ermənistandan fərqli olaraq biz öz ərazimizdə qurub-yaradırıq.

Bu gün "Qarabağ Ermənistandır və nöqtə", – deyən, bizi yeni müharibə ilə hədələyən Ermənistan bilmir hansı qanadın altında özünə yeni himayədar tapsın. Bütün dünyaya öz satqınlığını, nankorluğunu bir daha göstərir. İndi özü üçün yeni ağa axtarışındadır. Bilmir kimin ayağının altına yıxılsın. Bunun heç bir xeyri olmayacaq. Ermənistanın 29 min kvadratkilometr ərazidə rahat yaşaması üçün bir şərt var – bizim şərtlərimizi qəbul etməlidir, rəsmən Qarabağı Azərbaycan ərazisi kimi tanımalıdır, bizimlə sülh müqaviləsi imzalamalıdır, bizim şərtlərə əsasən delimitasiya işlərini aparmalıdır. Ancaq o təqdirdə onlar 29 min kvadratkilometr ərazidə, – hansı ki indi onlar ancaq bunu istəyirlər, – rahat yaşaya bilərlər. Əgər Ermənistan bizim ərazi bütövlüyümüzü tanımasa, biz də onların ərazi bütövlüyünü tanımayacağıq. Bunun nəticəsi nə olacaq, bunu Ermənistan və onun arxasında duran riyakar ölkələr yaxşı bilməlidirlər. Yaxşı bilməlidirlər ki, bizə qarşı heç bir çirkin plan həyata keçməyəcək. Bizim həm gücümüz var, həm dostlarımız var, dünyada güclü mövqelərimiz var və güclü iradəmiz var. Müharibə dövründə və müharibədən sonrakı dövrdə biz bunu nümayiş etdirmişik.

Talış kəndi 2020-ci il oktyabrın 3-də azad edilmişdir. İkinci Qarabağ müharibəsi başlayandan bir həftə sonra qan tökərək biz artıq Talış kəndini azad etdik, eyni zamanda Suqovuşan qəsəbəsini azad etdik.

İkinci Qarabağ müharibəsi dövründə o hərbi əməliyyatın çox böyük əhəmiyyəti var idi. Çünki biz öz azadlıq savaşımızı müxtəlif istiqamətlərdə aparırdıq, o cümlədən bu istiqamətdə. Ona görə bu istiqamətdə əldə edilmiş uğurlar müharibənin gələcək gedişatı üçün çox böyük önəm daşıyırdı, eyni zamanda ordumuzun və xalqımızın mənəvi ruhunu da yüksəldirdi. Çünki Talış kəndinin strateji əhəmiyyəti hər kəsə bəlli idi.

Biz 44 gün ərzində ancaq irəli gedirdik, bir gün belə geri addım atmadıq. Biz 44 gün ərzində döyüş meydanında Azərbaycan xalqının gücünü və yüksək mənəvi keyfiyyətlərini göstərmişdik. Bir nəfər də olsun bizim ordumuzdan qaçan olmamışdır. Ermənistan ordusunda son məlumata görə 10 min yox, 11 min fərari olmuşdur. Bunu onlar yaddan çıxarmasınlar və yaddan çıxarsalar, biz onların yadına salacağıq. İkinci Qarabağ müharibəsinin nəticələrini heç kim yaddan çıxarmasın. Yeni reallıqları hər kəs qəbul etməlidir. Bizim torpaqlarımızın 30 il ərzində işğal altında olmasını heç kim yaddan çıxarmamalıdır və gələcək sülh müqaviləsi üçün bu önəmli amillər hər kəsin beynində olmalıdır. Çünki biz bəzi hallarda görürük, sanki heç müharibə olmayıb, sanki işğal olmayıb, sanki Ağdamı "Qafqazın Xirosimasına" döndərən olmayıb. Bunu unutmaq və bizə unutdurmaq istəyirlər. Bu, heç vaxt olmayacaq. İşğal reallıqları, müharibə reallıqları, postmüharibə reallıqları sülh danışıqlarında öz əksini tapmalıdır və tapacaq. Əks təqdirdə, heç bir sülh müqaviləsi olmayacaq. Ermənistana lazım deyilsə, bizə də lazım deyil. Ondan sonra görək, baxaq bunun axırı nə olacaq?!

Biz bu gün doğma Qarabağ torpağında, doğma Zəngəzur torpağında dayanmışıq və burada əbədi yaşayacağıq. Azərbaycan xalqı haqlı olaraq qürur hissi ilə yaşayır. Bizim hər birimiz, xaricdə yaşayan azərbaycanlılar da daxil olmaq şərtilə iki il yarım müddət ərzində qürur hissi ilə yaşayırıq. Hər kəsə, bütün dünyaya sübut etmişik ki, böyük xalqıq və ərazi bütövlüyünü öz gücümüzə bərpa edən ölkə kimi bundan sonra da ancaq və ancaq irəliyə gedəcəyik. Necə ki Vətən müharibəsində 44 gün ərzində irəliyə getmişiksə, müharibə başa çatandan sonra bütün sahələr, bütün istiqamətlər üzrə irəliyə gedirik və gedəcəyik.

Mən əziz xalqımı qarşıdan gələn Novruz bayramı münasibətilə bir daha ürəkdən təbrik etmək istəyirəm, bir daha çıxışımı məşhur olan sözlərlə tamamlamaq istəyirəm: "Qarabağ Azərbaycandır!"

***

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva Klub icma mərkəzində yaradılan şəraitlə maraqlandılar.

Dövlətimizin başçısı və birinci xanım Talış kəndində fərdi evlərdə aparılan təmir-bərpa işləri ilə də tanış oldular.

Məlumat verildi ki, birinci mərhələdə 20 ev bərpa edilib və yenidən qurulub. Evlərin daxili hissələri və fasadı əsaslı təmir edilib, dam örtükləri tamamilə sökülərək yenilənib. Daxili və xarici divarlarda konstruktiv möhkəmləndirmə işləri yerinə yetirilib. Hər evin həyətyanı ərazisində əsaslı landşaft işləri görülüb, fərdi əkin sahələri yaradılıb və təsərrüfat anbarları inşa edilib. Bütün evlərin mövcud hasarları sökülüb, əvəzində yeni hasarlar tikilib. Evlərin daxili kommunikasiya xətləri yenidən qurulub.



Bildirildi ki, Böyük Qayıdış Proqramı çərçivəsində martın 16-da Tərtər rayonunun Talış kəndinə ilkin mərhələdə Bakı, Bərdə, Tərtər, Samux və Goranboyda əsasən ağır şəraitdə, qəzalı vəziyyətdə olan müvəqqəti məskunlaşma yerlərində yaşayan 20 ailə köçürülüb. İlk mərhələdə Talış kəndində məskunlaşdırılan 20 ailə arasında şəffaflıq və ədalətlilik prinsipləri əsasında ev bölgüsü aparılması məqsədilə püşkatma keçirilib. Püşkatma nəticəsində ailələrin hər birinə veriləcək evin ünvanı müəyyənləşdirilib. Onlardan 15-i üçotaqlı, 1-i ikiotaqlı, 4-ü dördotaqlı fərdi evlə təmin olunub.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Arzu Əliyeva kənd sakini Əyyub Əkbərovun evində yaradılan şəraitlə tanış oldular.

**Prezident İlham Əliyev:** – Salaməleküm.

**Ev sahibi Əyyub Əkbərov:** – Xoş gördük, cənab Prezident. Var olsun, Prezidentimiz.

**Birinci xanım Mehriban Əliyeva:** – Salam, xoş gördük, təbrik edirəm.

**Ev sahibəsi Arzu Əkbərova**: – Salam, Mehriban xanım, xoş gəlmisiniz.

**Prezident İlham Əliyev:** – Necəsiniz?

**Əyyub Əkbərov:** – Gözəl, necə olacağam? Buradan gedəndə cavan oğlan idim, 30 yaşında getmişdim.

**Prezident İlham Əliyev:** – Neçənci ildə buradan getmişdiniz?

**Əyyub Əkbərov**: – 1993-də getmişdim. İndi şükürlər olsun. Gözlərimə inanmıram.

**Prezident İlham Əliyev:** – Ovaxtkı Talış kəndi də bu cür idi?

**Əyyub Əkbərov:** – Bəli.

**Prezident İlham Əliyev:** – Bu da eviniz.

**Əyyub Əkbərov:** – Bəli, mənim evim budur. Şükürlər olsun, elə gələn kimi də işlə təmin olunmuşam. İcma mərkəzini mənə verdilər.

**Prezident İlham Əliyev:** – Orada işləyirsiniz?

**Əyyub Əkbərov:** – İnşallah, burada da bir 20-30 adam işlədəcəyəm.

**Prezident İlham Əliyev:** – Hə, çox yaxşı.

**Əyyub Əkbərov:** – Şükürlər olsun, cənab Prezident, hər şeyimiz var, şükür Allaha.

**Prezident İlham Əliyev:** – Gəl baxaq. Nə vaxt gəlmisiniz, iki gün qabaq gəlmisiniz?

**Əyyub Əkbərov:** – Bəli, bir-iki gün olar gəlmişik. Buyurun.

**Prezident İlham Əliyev:** – Yemək otağı.

**Əyyub Əkbərov:** – Çox şadıq.

**Prezident İlham Əliyev:** – Siz harada yaşayırdınız?

**Əyyub Əkbərov:** – Bakıda yaşayırdıq. Ancaq inanırdıq ki, nə vaxtsa gələcəyik, buranın həsrəti ilə yaşayırdıq.

**Prezident İlham Əliyev:** – Əlbəttə. Çox keçdi, amma qayıtdıq.

**Əyyub Əkbərov:** – Şükürlər olsun, qayıtdıq. Bilirsiniz, cənab Prezident, o vaxt burada işləyirdim, təsərrüfatda. Kəndimizin əhalisi üzümçülüklə məşğul olurdu. Çox qorxa-qorxa yaşayırdıq. İndi heç kimdən qorxmuram, heç kimdən qorxmuruq.

**Prezident İlham Əliyev:** – İndi bizdən qorxurlar.

**Əyyub Əkbərov:** – Bəli, əlbəttə, indi bizdən qorxurlar. Biz heç kimdən qorxmuruq. Şükürlər olsun, buraya gəlmişik, yaşayacağıq, yaradacağıq. Buranın füsunkar gözəlliyini də qoruyub saxlayacağıq.

**Prezident İlham Əliyev:** – İnşallah.

**Əyyub Əkbərov: –** Mən də indi buradakı icma ilə bir ağsaqqal kimi söhbət etmişəm, buranı daha da gözəlləşdirəcəyik.

**Prezident İlham Əliyev:** – İndi buranın ancaq birinci mərhələsidir, daha 178 ev tikiləcək, camaat da köçəcək. Burada, yəqin ki, mindən çox insan yaşayacaq. Siz o vaxt burada yaşayanda nə ilə məşğul olurdunuz, heyvandarlıqla?

**Əyyub Əkbərov:** – Təsərrüfatla məşğul idik, üzüm sahələrimiz var idi. Gözəl becərmişdik. O mənfurlar buraya da Xocalıdakı kimi fevral ayında hücum etdilər. Özü də gecə vaxtı. Buradan hamımız piyada Borsunlu kəndinə üz tutduq.

**Prezident İlham Əliyev**: – Borsunlu kəndinə?

**Əyyub Əkbərov:** – Bəli, Borsunlu kəndinə. Üzüm bağlarında budama işlərini qurtarmışdıq, bol məhsul gözləyirdik.

**Prezident İlham Əliyev:** – Əsas üzümçülük idi?

**Əyyub Əkbərov:** – Bəli, əsas üzümçülük idi, hər şey, kartof da əkirdik, gözəl torpaqdır.

**Prezident İlham Əliyev:** – İndi hamısını bərpa etmək lazımdır. Hamısını bərpa edəcəksiniz, üzümü də, kartofu da.

**Əyyub Əkbərov:** – Əlbəttə, edəcəyik, hamısını dövlətin üstünə atmayacağıq ki, dövlət etsin. Gəlmişik, biz də yaradacağıq.

**Prezident İlham Əliyev:** – Burada hər şey var, su var.

**Əyyub Əkbərov:** – Şükürlər olsun.

**Prezident İlham Əliyev:** – Kənd təsərrüfatı üçün, məşğul olmaq üçün şərait yaradılacaq. Hava da ki, kurort havasıdır.

**Əyyub Əkbərov:** – Bəli, burada yaşayanda xəstələnmirdik, cənab Prezident.

**Prezident İlham Əliyev:** – Əlbəttə, burada adam sağalır, xəstələnmir.

**Əyyub Əkbərov:** – Burada biz xəstəlik görmürdük. İndi, şükürlər olsun, o füsunkar təbiəti, bu gözəl havası, gəldik, çox xoşbəxtik çox.

**Prezident İlham Əliyev:** – Görün nə günə salmışdılar ermənilər bu kəndləri, bu yerləri. Bütün binalar dağılmış vəziyyətdə idi. İşğal dövründə bir daş-daş üstünə qoyulmadı, ancaq talamaq, dağıtmaq, sökmək.

**Əyyub Əkbərov:** – İndi maraqlı bir şey deyim. Qardaşım Almaniyadadır. Oradan danışır, orada onun bir yeməkxanası var. Mənə deyir ki, o küncdə oturan 8 nəfərə bax ermənilərdir Talışı izləyirlər. Deyirlər ki, o uçuq yerlərə bax, o biz, o da Azərbaycan. Baxın görürsünüz, özləri də bunu deyirlər.

**Prezident İlham Əliyev:** – Bu, hələ başlanğıcdır.

**Əyyub Əkbərov:** – Biz buyuq, heç kimin torpağında gözümüz yoxdur, bizim yaşayışımız budur. Bizim xalqımız budur. Biz səliqəli xalqıq. Biz oğru xalq deyilik. Heç kimin torpağında gözümüz yoxdur.

**Prezident İlham Əliyev:** – Bəli.

**Əyyub Əkbərov:** – Biz burada əsrlərboyu yaşayacağıq.

**Prezident İlham Əliyev:** – Əbədi, əbədi.

**Əyyub Əkbərov:** – Oğlanlarım, nəvələrim, hər kəs deyir ki, Qarabağ Azərbaycandır. O yazıya baxıram, nəvələrim də gəlib oxuyur, əzbər bilirlər. Uşaq anadan olanda qulağına pıçıldayacağıq ki, Qarabağ Azərbaycandır! Bir daha təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** – Sağ olun.

**Əyyub Əkbərov:** – Prezidentim bir də gələndə samovar çayına qonaq olacaq.

**Prezident İlham Əliyev:** – Gələcəyəm, əlbəttə, gələcəyəm. Hələ kənd tam tikilsin. Kənd tam tikiləndən sonra mütləq gələcəyəm.

***

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Arzu Əliyeva kənd sakinləri ilə görüşüb söhbət etdilər.

**Prezident İlham Əliyev**: – Qarşıdan gələn bayram münasibətilə və Talış kəndinə qayıtmağınız münasibətilə sizi ürəkdən təbrik edirəm.

**Sakinlər:** – Çox sağ olun.

**Prezident İlham Əliyev:** – Biz qayıtmışıq, əbədi burada yaşayacağıq.

**Qadın sakin:** – İnşallah.

**Prezident İlham Əliyev:** – Baxın bu Talış kəndinin birinci mərhələsidir. Görün nə qədər gözəldir. Göz oxşayır bütün binalar.

**Sakinlər:** – Allah Sizi qorusun, Allah Sizə dəyməsin.

**Prezident İlham Əliyev:** – Yəqin ki, uzağı bir ildən sonra qalan bütün 158 ev də tikiləcək.

**Sakinlər:** – Allah Sizə ömür versin.

**Prezident İlham Əliyev:** – Burada mindən çox insan yaşayacaq. Ondan sonra minlərlə insan yaşayacaq.

**Sakinlər:** – İnşallah.

**Prezident İlham Əliyev:** – Biz öz doğma torpaqlarımıza qayıtmışıq, qan tökərək, şəhidlər verərək. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

**Sakinlər:** – Amin.

**Prezident İlham Əliyev:** – Onların qanı bahasına biz gəlmişik, sizi də gətirmişik. Siz də artıq iki gündür ki, buradasınız, bilirəm.

**Sakinlər:** – Çox sağ olun, təşəkkür edirik.

**Prezident İlham Əliyev:** – Məşğulluqla bağlı, ictimai işlərdə işləməklə bağlı, dövlət işində işlə bağlı bütün məsələlər həll olunub. Qarabağ cənnətdir.

**Qadın sakin:** – Azərbaycandır!

**Prezident İlham Əliyev:** – Azərbaycandır!

**Sakinlər:** – Şəkil çəkdirək.

**Prezident İlham Əliyev:** – Hə, gəlin çəkdirək.

**Kişi sakin:** – Çox sağ olun, Allah canınızı sağ eləsin. Bizə bu cür şərait yaratdığınız üçün Sizə minnətdarıq. Allah Sizə ömür versin.

**Prezident İlham Əliyev:** – Harada yaşayırdınız?

**Kişi sakin:** – Bərdə rayonunda. İndi isə öz kəndimizdəyik. Allah canınızı sağ eləsin.

**Gənc qız:** – Cənab Prezidentimiz, mən Sizi Talış kəndinin gəncləri və sakinləri adından salamlayıram.

**Prezident İlham Əliyev:** – Sağ olun.

**Gənc qız:** – Mən bu dəqiqə ikiqat qürur duyuram. Çünki işğaldan azad edilmiş torpağımızda dayanmışam, Sizin qarşınızda dayanmışam. Bilirəm ki, biz hamımız, bu günü səbirsizliklə gözləyirdik. Çox şükür ki, biz bu günü gördük. Talış kəndinin işğaldan azad edilməsi mühüm əhəmiyyətə malik idi. Mən Sizə çox təşəkkür edirəm. Allah Sizi qorusun. Bir şey də deyim, gənclərə yaratdığınız şəraitə görə Sizə minnətdarıq.

**Prezident İlham Əliyev:** – Sağ olun.

**Sakinlər:** – Allah Sizə ömür versin. Sevincimizin həddi-hüdudu yoxdur, Allah haqqı. İcazə verin şəkil çəkdirək, cənab Prezident.

**Digər kişi sakin:** – Sizi verən Allaha qurban olum. Allah Sizə ömür versin.

**Prezident İlham Əliyev:** – Görürsən, qız necə qucağımda durur?

**Kişi sakin:** – Heç atasına gəlmir.

**Qadın sakin:** – Babasına gəlir də, babasına. Sağ olun, çox təşəkkür edirik.

**Kişi sakin:** – Cənab Prezident, bildirmək istəyirəm ki, biz iki qardaşıq. Elə ikimiz də bu kənd uğrunda döyüşmüşük. İkimiz də Sizin sayənizdə kəndimizə gəlmişik. Evlərimiz, həyətlərimiz hamısı çox gözəl, yüksək səviyyədədir. Çox sağ olun, minnətdaram. Allah şəhidlərimizə rəhmət eləsin.

**Prezident İlham Əliyev:** – Amin.

**Kişi sakin:** – Siz onsuz da masada qalib gəlmişdiniz, biz döyüş meydanında onlara bir daha göstərdik. Çox sağ olun hər şey üçün.

**Prezident İlham Əliyev:** – Elədir, sağ olun.

**Sakinlər:** – Allah Sizi qorusun. Çox sağ olun. Allah Sizi var eləsin.

**Kişi sakin:** – Qardaşım da, mən də burada döyüşmüşdük.

**Prezident İlham Əliyev:** – Çox sağ olun.

**Kişi sakin:** – Siz sağ olun.

**Prezident İlham Əliyev:** – Bu döyüş çox önəmli idi, bilirsən. Bu, strateji nöqtə idi. Biz Talışı azad edəndən sonra ermənilər artıq gördülər ki, bu, ciddi məsələdir.

**Kişi sakin:** – Bəli, sağ olun.

**Prezident İlham Əliyev:** – Sağ olun.

**Qadın sakin:** – Prezidentlə bizim də şəklimizi çəkin.

**Prezident İlham Əliyev:** – Gəlin çəkdirək.

**Kişi sakin:** – Qarabağ Azərbaycandır!

**Qadın sakin:** – Qızım da çox istəyərdi Sizinlə görüşsün, amma burada deyil, gələ bilmədi.

**Prezident İlham Əliyev:** – Gələcək?

**Qadın sakin:** – Gələcək.

*Ardı 4-cü səhifədə*

**Prezident İlham Əliyev:** – Burada yaşayacaq?

**Qadın sakin:** – Bizə qonaq gələcək.

**Kişi sakin:** – Allah Sizi qorusun, bizi evlə təmin etmisiniz. Çox sağ olun.

**Prezident İlham Əliyev uşağa müraciətlə:** – De, nə deyəcəkdin?

**Sakin:** – Deyir ki, babanın da bayramını təbrik edək.

**Prezident İlham Əliyev:** – Çox sağ olun, təşəkkür edirəm.

**Sakinlər:** – Çox sağ olun. Allah Sizi qorusun.

**Prezident İlham Əliyev:** – Burada minalar çox idi, bilirsiniz.

**Sakin:** – Bəli, 44 günlük döyüşlərdən sonra burada Beynəlxalq Avrasiya Mətbuat Fondunun nəzdində İcma Mina Aksiyası komandasında çalışıram. Orada minalar var, təmizlənməsində iştirak edirəm.

**Birinci xanım Mehriban Əliyeva:** – Cənab Prezident, bu gözəl qızı da yanınıza alın.

**Prezident İlham Əliyev:** – Gəl, gəl.

**Sakin:** – Sağ olun, cənab Prezident.

**Prezident İlham Əliyev:** – Sağ ol, çox sağ ol.

**Sakin:** – Xoş gəlmisiniz. Minnətdarıq Sizə. Qürur duyuruq ki, gəldiniz.

**Prezident İlham Əliyev:** – Sağ olun.

**Sakin:** – Allah Sizə ömür versin, cansağlığı versin ki, belə şərait yaratmısınız. Allah haqqı, sevincimizin həddi-hüdudu yoxdur.

**Qadın sakin:** – Torpaqlarımız azad olundu, minnətdarıq.

**Sakin:** – Bəli, əsas odur. Allah uzun ömür, cansağlığı versin. İnşallah, bütün Azərbaycan torpaqlarını Prezidentimiz birləşdirəcək, inanırıq biz buna.

**Digər kişi sakin:** – Biz fəxr edirik ki, bizim belə güclü Prezidentimiz var, Qarabağ Azərbaycandır! Allah Sizə ömür versin, cansağlığı versin. Bu, hələ harasıdır.

**Prezident İlham Əliyev:** – Sağ olun.

**Sakin:** – Sizin səmimiliyiniz adama bəs edir.

**Prezident İlham Əliyev:** – Sağ olun.

**Sakin:** – Çox sağ olun, Allah Sizi qorusun.

**Prezident İlham Əliyev:** – Çox sağ ol, qızım, çox sağ ol.

**Sakin:** – Var olasınız.

**Prezident İlham Əliyev:** – Çox sağ olun.

**Sakin:** – Cənab Prezident, Allah Sizə dəyməsin, Allah Sizə ömür versin.

**Prezident İlham Əliyev:** – Sağ olun. Gəlin hamımız birlikdə şəkil çəkdirək. İndi də hamımız "Qarabağ Azərbaycandır!" deyək.

**Hamı bir ağızdan:** – Qarabağ Azərbaycandır!

**Sakin:** – Burada bir kilsə var.

**Prezident İlham Əliyev:** – Yuxarıda. Bəli, mən orada olmuşam.

**Sakin:** – Orada bir kitab tapmışdıq, oxuyurdum orada, Osmanlı türkləri.

**Digər sakin:** – Osmanlıya aiddir, albanlara aid deyil. Buranın birinci sakini də biz olmuşuq, axırıncı sakini də.

**Prezident İlham Əliyev:** – Orada bir kilsə, bir də rus kilsəsi var idi. Mən keçən dəfə orada olanda gedib baxmışam. Yarı dağılmış vəziyyətdədir.

**Sakin:** – Var idi yuxarıda, amma o, osmanlılara aid idi, çünki mən oradan bir kitab gətirib oxuyurdum, Osmanlı imperiyasına aid idi. Albanlara yox, osmanlılara aid idi o kilsə.

**Prezident İlham Əliyev:** – İndi orada məscidin yeri də müəyyən olundu, məscid də tikiləcək.

**Sakin:** – Buranın birinci sakini də biz olmuşuq, axırıncı sakini də. Çox gözəl idi. Mən burada üzümçülük briqadiri işləmişəm.

**Prezident İlham Əliyev:** – O vaxt kolxoz var idi?

**Sakin:** – Var idi, üzümçülük var idi. Mən burada camaatı üzümçülüyə öyrədirdim. Amma indi heç nə yoxdur.

**Prezident İlham Əliyev:** – Süfrə üzümü, yoxsa texniki sortlar?

**Sakin:** – Şərab üçün üzüm idi, çox gözəl. Üzüm bağlarının sahəsi çox böyük idi, 100 hektar. Bir də ki, çox gözəl ərik bağı var idi.

**Prezident İlham Əliyev:** – İndi onların hamısını əkmək lazım olacaq. Torpaq çox, su var, havası gözəl. İndi kənd təsərrüfatı üçün ən gözəl şərait buradadır.

**Sakin:** – Çox sağ olun, bəli, torpağı da münbitdir.

**Prezident İlham Əliyev:** – Torpağı qara torpaqdır.

**Sakin:** – Buranın çox bulaqları var idi, buradan çay axırdı, indi məəttəl qalmışıq, o çay yoxdur.

**Prezident İlham Əliyev:** – Onlar bəzi yerlərdə, Qarabağda kanallar, gölməçələr tikiblər, ona görə kəsmişdilər. İndi hamısını siz yavaş-yavaş aşkar edəcəksiniz.

**Sakin:** – Bax orada, dağın dibində elə gözəl bulaqlar var idi.

**Prezident İlham Əliyev:** – İndi də?

**Sakin:** – Bu saat əsl turizm yeridir oralar.

**Prezident İlham Əliyev:** – İçməli su?

**Sakin:** – Bəli, içməli su, bulaqlar var orada.

**Prezident İlham Əliyev:** – Burada məktəb tikilib, uşaqlar məktəbə gedəcəklər. Uşaq bağçası da var.

**Sakin:** – Çox sağ olun, təşəkkür edirik.

**Prezident İlham Əliyev:** – Əlbəttə, burada çox iş görülüb. Borcumuz idi bu torpaqları geri götürmək və bu torpaqları yenidən qurmaq, sizi də buraya yerləşdirmək.

**Qadın sakinlər:** – Çox sağ olun, minnətdarıq.

**Kişi sakin:** – Bundan sonra biz buradan heç yerə getməyəcəyik, dünya dağılsa da yerimizdən tərpənməyəcəyik.

**Prezident İlham Əliyev:** – Heç kim sizi tərpədə bilməz bundan sonra.

**Sakin:** – Nümayəndələriniz də çox gözəl, səmimi. Minnətdarıq hamısına, çox yaxşı, çox razıyıq Sizdən. Allah razı olsun Sizdən, dövlətimizdən.

**Prezident İlham Əliyev:** – Allaha şükür, burada çox gözəl həyat olacaq. Siz çoxuna layiqsiniz, 30 il əziyyət çəkdiniz orada-burada, yataqxanalarda, çadırlarda. İndi bax belə gözəl şəraitiniz var.

**Sakin:** – Allah şəhidlərimizə rəhmət eləsin. Ən çox əziyyəti Siz çəkdiniz, cənab Prezident. Bütün dünya Sizinlə bacara bilmədi, maşallah olsun.

**Digər sakin:** – Ürəyində çəkdi, bütün dünya da bacarmadı, var olsun.

**Prezident İlham Əliyev:** – Siz durdunuz arxamda, ona görə də öldü var, döndü yoxdur, qurtardı getdi.

**Sakin:** – Hər zaman da arxanızdayıq.

**Prezident İlham Əliyev:** – Çox sağ olun. Bayram ərəfəsindəyik. Sizə yaxşı bayramlar arzulayırıq.

**Sakin:** – Çox sağ olun, minnətdarıq cənab Prezident.

**Prezident İlham Əliyev:** – Sağ olun.

**Sakinlər:** – Sağ olun.

***

Sonda xatirə şəkilləri çəkdirildi.

**AZƏRTAC**

## Culfa rayonunun Yaycı kəndini içməli su ilə təmin edəcək su şəbəkəsi istifadəyə verilib

Martın 18-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Culfa rayonunun Yaycı kəndini içməli su ilə təmin edəcək su şəbəkəsinin açılış mərasimində iştirak edib.

Əvvəlcə səlahiyyətli nümayəndə kənd sakinləri ilə görüşüb, onların problemləri ilə maraqlanıb, Novruz bayramı münasibətilə təbriklərini çatdırıb, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə muxtar respublikada görülən işlər haqqında məlumat verib.



Kənd ziyalısı, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti, Ali Məclisin deputatı Fərəc Fərəcov sakinlər adından kəndin içməli su təminatının yaxşılaşdırılması ilə bağlı görülən işlərə görə ölkə Prezidentinə minnətdarlıq edib.

Sonra məlumat verilib ki, Gilançay yatağında diametri 300 millimetrlik borularla 13 baxış quyusu olan 590 metrlik kaptaj və ətrafında selyönəldici bənd tikilib. Kaptajdan su anbarlarına qədər plastik borularla 12,4 kilometr xətt çəkilib. Su natrium hipoxloridlə dezinfeksiya olunaraq hər birinin tutumu 1000 kubmetr olan 2 su anbarına yığıldıqdan sonra öz axını ilə şəbəkəyə verilir. Layihəyə əsasən kənddə müxtəlifdiametrli borularla, ümumilikdə, 107,6 kilometr su xətti çəkilib və 1485 evə su verilərək sayğac quraşdırılıb. Su şəbəkəsi üzərində 6 yanğın hidrantı, qəza hallarında isə məhəllə xətlərinin bağlanması üçün 5 suboşaldıcı və 86 siyirtmə qoyulub. Relyefdən asılı olaraq mənzillərə 2-5 bar arasında təzyiqlə su verilir.

## Naxçıvanda Novruz bayramı münasibətilə ümumxalq şənliyi keçirilib






Martın 19-da Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, dövlət və hökumət nümayəndələri, Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Asip Kaya Novruz bayramı münasibətilə Naxçıvan şəhərindəki "Əcəmi seyrəngahı" Mədəniyyət və İstirahət Kompleksində təşkil edilən "Novruz Şəhərciyi"ndə iştirak ediblər.

Əvvəlcə "Əcəmi seyrəngahı" Mədəniyyət və İstirahət Kompleksində xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü önünə gül dəstələri qoyulub, xatirəsinə ehtiram ifadə edilib.

El ağsaqqalı Dədə Qorqud, xalq qəhrəmanları Koroğlu və Babək Novruzun gəlişi münasibətilə xeyir-dua verib.



Bayram tonqalı yandırıldıqdan sonra Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli tədbir iştirakçılarını Novruz bayramı münasibətilə səmimi-qəlbdən təbrik edərək deyib ki, Novruzun Azərbaycana builki gəlişi Ümummilli Liderimiz Heydər Əliyevin 100 illik yubileyinin qeyd olunduğu "Heydər Əliyev İli"nə təsadüf etdiyi üçün xüsusilə əlamətdardır. Məhz Ulu Öndərimizin səyi nəticəsində Novruz bayramı milli varlığımızın rəmzlərindən biri kimi bu gün qeyd olunur. Novruz bayramı keçmişlə gələcək arasında mənəvi bağdır. Bayramın mahiyyətini ifadə edən sülh, quruculuq və həmrəylik məfkurəsi Azərbaycan xalqının milli ruhunun və yaddaşının təzahürü, müstəqilliyimizin və dövlətçiliyimizin təntənəsidir. Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab

*Ardı 5-ci səhifədə*













İlham Əliyev bütün gücü və varlığı ilə çalışır və buna nail olur ki, Azərbaycan Respublikasının hər bir vətəndaşı inkişaf və rifah şəraitində yaşasın. Artıq Novruz bayramı ölkəmizdə Zəfər ovqatı və işğaldan azad olunmuş torpaqlara böyük qayıdış əhval-ruhiyyəsi ilə qeyd olunur. Əminik ki, cənab Prezidentin qətiyyətinin və iradəsinin nəticəsi olaraq Zəngəzur dəhlizi uğurla reallaşdırılacaq. Bu, Azərbaycanımıza, onun ayrılmaz parçası olan Naxçıvanımıza böyük inkişaf gətirəcək.

Səlahiyyətli nümayəndə bu əziz bayram günündə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən bacı və qardaşlarımızın xatirəsini dərin hörmət və ehtiramla yad edib, şəhid ailələrini, qaziləri, torpaqlarımızın keşiyində ayıq-sayıq dayanan əsgər və zabitləri, bütün muxtar respublika əhalisini təbrik edib, sağlıq və səadət arzulayıb.

Şənlikdə muxtar respublikada olan bir çox təşkilatların, qurumların və fiziki şəxslərin əl işlərindən ibarət sərgi-satış təşkil olunub.

Sonra səlahiyyətli nümayəndə şəhid və qazi övladlarına bayram hədiyyələri təqdim edib, onlarla xatirə şəkli çəkdirib.

Tədbirdə qurulmuş “Uşaq şəhərciyi”ndə uşaqların əyləncəsini təşkil etmək üçün Mədəniyyət Nazirliyi və könüllülər tərəfindən maraqlı oyunlar keçirilib, Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının ifası izlənilib.

Bayram şənliyində ictimai iaşə xidməti də göstərilib.

**“Şərq qapısı”**

# Novruz bayramı muxtar respublikamızın rayonlarında da yüksək əhvali-ruhiyyə ilə qeyd edilib



Şərur rayonunda da bayram şənliyi yüksək əhvali-ruhiyyə ilə qeyd olunub. Tonqal ətrafında rəqs edənlərin, yallı gedənlərin, halay tutanların çıxışları, əllərində baharın rəmzi olan səməni tutmuş qızların meydanboyu hərəkətləri, pəhləvanların göstərdikləri maraqlı nömrələr, Keçəl və Kosanın Novruz əhvali-ruhiyyəli məzəli hərəkətləri və zarafatları hər kəsin diqqətini çəkib.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin 100 illiyi münasibətilə çəkilmiş portretlərindən, qədim sənət – misgərlik və dulusçuluq nümunələrindən, toxuculuq məmulatlarından, kənd təsərrüfatı məhsullarından, mətbəx nümunələrindən, qadınların əl işlərindən ibarət sərgiyə baxış olub.

Novruz bayramı münasibətilə Babək rayonunda keçirilən tədbirdə bildirilib ki, artıq üç ildir, Azərbaycan xalqı Novruz bayramını müzəffər, qalib xalq kimi qeyd edir. İşğaldan azad olunmuş Cıdır düzündə, Talış kəndində Ali Baş Komandan tərəfindən alovlandırılan bayram tonqalı dostlarımıza sevinc, düşmənlərimizə gözdağıdır.

Bayram tədbirində mədəniyyət və incəsənət ustalarının ifalarında Novruzu, baharı vəsf edən mahnılar oxunub, xalq mahnıları, aşıq havaları səsləndirilib. Babək Rayon Mədəniyyət İdarəsinin hazırladığı konsert proqramı tədbir iştirakçılarında xoş ovqat yaradıb.

Ordubad şəhərindəki Tədbirlər meydanında keçirilən tədbirdə Novruz şənliyinin ən maraqlı məqamı Dədə Qorqudla Bahar qızın meydana daxil olması idi. Dədə Qorqud bu ilin xalqımıza xoşbəxtlik gətirməsini, işğaldan azad edilmiş torpaqlarımızın cənnətməkana dönməsini arzuladı və meydanın mərkəzində qalanan tonqalı alışdırdı. Ordubad Rayon Mədəniyyət Sarayının üzvlərinin “Dübəndi” İnstrumental Ansamblının müşayiəti ilə bir-birindən maraqlı musiqi nömrələri, meydan tamaşalarının qəhrəmanı olan Xanın çaparların müşayiəti ilə meydana daxil olması alqışlarla qarşılandı.



Kəngəri Rayon Mədəniyyət Şöbəsinin hazırladığı əyləncəli-kütləvi bayram şənliyinin aparıcıları Novruz bayramı münasibətilə tədbirə toplaşanları salamlayaraq bildiriblər ki, xalqımız Novruz bayramını yüksək ovqatla, qələbə sevinci, xoş əhvali-ruhiyyə ilə qeyd edir. “Heydər Əliyev İli”ndə keçirilən Novruz bayramı daha əlamətdardır. Bu bayramın sakinlər üçün digər əlamətdarlığı isə Kəngərli rayonunun Novruz bayramı ərəfəsində – 2004-cü il martın 19-da yaradılmasıdır.

Sonra bayram tədbiri bir-birindən maraqlı musiqi nömrələri ilə davam etdirilib.

Şahbuz şəhərində təşkil olunan Novruz şənliyində bayram tonqalı yandırıldıqdan sonra Şahbuz Rayon Mədəniyyət Evinin “Babat” İnstrumental Ansamblının solistlərinin ifasında səslənən mahnılar alqışlarla qarşılandı. İncəsənət ustalarının baharı, Azərbaycanı tərənnüm edən mahnıları dalğa-dalğa hər tərəfə yayılırdı. Şux, oynaq musiqi sədaları ətrafı bürümüşdü. Milli geyimli uşaqlar meydanda rəqs edirdilər. Dağlarda əks-səda verən qara zurnanın səsi altında qızışan meydanda çıxış edən rəqs və yallı kollektivlərinin, uşaq musiqi məktəblərinin nağaraçılar qrupunun ifaları bayram tədbirinə xüsusi bir rövnəq verirdi.

Sədərək rayonunda da Novruz bayramına əvvəlcədən geniş hazırlıq tədbirləri görülmüşdü. Bayram münasibətilə keçirilən şənlikdə rayonun musiqi kollektivləri xalqımızın Novruz adət-ənənələrini, qədim el sə-



nətkarlığından nümunələr nümayiş etdirib, Kosa, Keçəl və Bahar qız tamaşa göstərib, rəngarəng konsert proqramı ilə tədbir iştirakçılarına yüksək ovqat bəxş olunub.

Tədbir iştirakçıları sonra xalq yaradıcılığı nümunələrindən və yerli sahibkarların istehsal etdikləri məhsullardan ibarət sərgiyə baxıblar. Sərgidə xalq sənətinin ağacişləmə, dülgərlik, toxuculuq, xalçaçılıq, dəmirçilik, daşyonma sahələrini özündə əks etdirən nümunələr şənlik iştirakçıları tərəfindən maraqla qarşılanıb.

**“Şərq qapısı”**

## Naxçıvanda Çanaqqala zəfərinin 108-ci ildönümü qeyd edilib

Çanaqqala zəfərinin 108-ci ildönümü münasibətilə Naxçıvan şəhərindəki Şəhidlər xiyabanında keçirilən anım mərasimində Türkiyə Cümhuriyyətinin Naxçıvan Muxtar Respublikasındakı Baş konsulu Asip Kaya, Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev, Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin rəisi Vüsal Ələkbərli, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının xarici əlaqələr üzrə baş məsləhətçisi Beyrək Cəfərov, Türkiyə ordusunun zabitləri, ictimaiyyət və media nümayəndələri, türkiyəli tələbələr iştirak ediblər. Mərasimdə şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra türk şəhidlərinin xatirəsinə ucaldılmış abidə önünə əklil və gül dəstələri qoyulub, Şəhidlər xiyabanı ziyarət edilib, "Ana" abidəsinin qarşısına və şəhidlərimizin məzarlarına tər güllər düzülüb.



Türkiyənin Naxçıvandakı Baş Konsulluğunda davam edən tədbirdə hər iki ölkənin şəhidləri, zəlzələ qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himnləri səsləndirilib. Müqəddəs "Qurani-Kərim"dən ayələr oxunub, şeirlər qiraət edilib. Sonra Çanaqqala zəfərinə və Türkiyə Respublikasında baş verən zəlzələ sonrası Naxçıvan ictimaiyyətinin yardım aksiyalarına həsr olunmuş videoçarx nümayiş edilib.

Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya çıxış edərək bildirib ki, şəhidlərimizin sarsılmaz Vətən sevgisi, xalqımızın, o cümlədən iki qardaş ölkənin birliyi və bərabərliyi ən böyük qürurumuzdur. Tarixi qəhrəmanlıqlarla dolu olan millətimiz 108 il əvvəl Çanaqqalada böyük bir tarix yazıb və torpaqlarımızın işğalına heç vaxt razı olmayacağını dünyaya bəyan edib. Türk hərb tarixinin şərəfli səhifələrindən birinə çevrilən bu döyüş Mustafa Kamal Atatürk kimi bir dahini yetişdirmiş, gələcək qurtuluş savaşında onun liderliyinə əsas zəmin yaratmış, bu savaşın ümumxalq mübarizəsi olduğunu bir daha təsdiqləmişdir.

Qeyd edilib ki, Azərbaycanın Vətən müharibəsindəki haqlı Qələbəsi Türkiyə Respublikasında da böyük coşqu ilə qarşılandı. Müharibənin başlandığı ilk gündən Türkiyə qardaş Azərbaycana bütün imkanları ilə öz mənəvi dəstəyini göstərdi, həmçinin fevral ayının əvvəllərində Vətənimizdə baş verən təbii fəlakətdə Azərbaycan xalqı əlindən gələn bütün yardımı göstərməklə tarixi qardaşlığı, birlik və həmrəyliyi bir daha dünyaya tanıtdı.

Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Asip Kaya "Şərq qapısı" qəzetinə müsahibəsində deyib: "Çanaqqala şəhidlərinin göstərdiyi tarixi qəhrəmanlıq unudulmazdır, bu zəfərin türk tarixində ayrı bir yeri var. Çanaqqala döyüşündə Türkiyənin 253 min döyüşçüsü ilə yanaşı, 3 minə yaxın azərbaycanlı da şəhid olub. Çanaqqalaya gələrək orada könüllü döyüşən və şəhid düşən Azərbaycan türklərinin xatirəsi daim qəlbimizdədir.

Böyük Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ***"Bir millət iki dövlət"*** ideyasına sadiq qalan Azərbaycan və Türkiyə qardaşlığı sarsılmaz və əbədi təməllər üzərində qurulub. Azərbaycan Respublikasının haqq-ədalət mübarizəsi kimi tarixə yazılan 44 günlük Qarabağ savaşında da Vətənimiz bir an belə olsun nəzərini azərbaycanlı qardaşlarımızın üzərindən çəkmədi. Nəticədə, bu birlik və bərabərlik hər iki ölkəni daha da gücləndirdi".

✍ Məcid RƏŞADƏTOĞLU

## Sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirilib



Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, polis polkovniki Süleyman Neymətov sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib. Sıra baxışında muxtar respublikada yaşayan, polis orqanlarında xidmət etmək arzusunda olan gənclər iştirak ediblər.

Tədbirdə Vətən müharibəsinin 11 iştirakçısı, şəhid ailəsinin 5 üzvü olmaqla xidmətə qəbulun şərtlərinə uyğun gələn 131 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

Xəbərlər şöbəsi

*Xalqımızın böyük oğlu, görkəmli dövlət xadimi Heydər Əliyev güclü qadağaların mövcud olduğu sovet dönəmində belə digər sahələrlə yanaşı, milli dəyərlərin qorunmasına, İslam dininə məxsus olan ayinlərin yerinə yetirilməsinə ehtiramla yanaşılmasına böyük önəm verirdi. Ulu Öndər deyirdi:* ***"Azərbaycanda İslam dini VII əsrdən yayılıb və Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin əsasını təşkil edib. Bizim çoxəsrlik islam dövrü tariximiz zəngindir... İslam dini həmişə insanları saflığa, təmizliyə, ülvi mənəviyyata dəvət etmişdir. "Qurani-Kərim" insanları düzlük, mənəvi paklıq ruhunda tərbiyə edir".*** *1993-cü ildə ikinci dəfə siyasi hakimiyyətə gələn Ümummilli Liderimizin xalqımızın milli-mənəvi dəyərlərinin, onun adət-ənənələrinin dirçəldilməsi, xüsusən İslam mədəniyyəti nümunələri olan məscidlərin, tarixi-memarlıq abidələrinin, ziyarətgahların bərpası ilə bağlı tədbirlərin həyata keçirilməsi dahi rəhbərin islami dəyərlərə ehtiramını göstərən parlaq misallardır.*

## *Milli-dini həmrəyliyin, mənəvi-əxlaqi kamilliyin təcəssümü* – Ramazan



Artıq bütün dünya 2020-ci ilin tariximizə yazdığı yeni səhifələr içərisində işğaldan azad edilmiş torpaqlarımızda mövcud olan ibadət yerlərinin vəhşicəsinə dağıdılmasını, belə müqəddəs yerlərdən digər məqsədlər üçün istifadə edilməsini bilir. Ulu Öndər Heydər Əliyevin hər bir sahədə müəyyənləşdirdiyi siyasəti uğurla davam etdirən ölkə başçısı cənab İlham Əliyevin bu ünvanlarda olması, həmin obyektlərin yenidən qurularaq dindarların ixtiyarına verilməsi ilə bağlı tapşırıqları hər birimizi ürəkdən sevindirir. Artıq həmin ünvanlarda azan səsləri eşidilir. Bu, ölkəmizdə dəyərlərimizə, həm də hər bir müsəlmana göstərilən qayğının bariz ifadəsidir.

Ümummilli Liderimizin müəyyənləşdirdiyi bu xətt bu gün muxtar respublikamızda da uğurla davam etdirilir. Qeyd edək ki, 653-cü ildə İslam dininin könüllü qəbul edildiyi Təktanrıçılığın mərkəzlərindən biri olan qədim diyarımız Naxçıvanda sağlam dini etiqad və zəngin mənəvi dəyərlər sisteminin formalaşdırılması bu günün reallığıdır. On beşinci əsrdə tərtib olunmuş "Dünyanın İslam tarixi xəritəsi"ndə də Naxçıvan İslamın ən güclü dayaqlarından olan biri kimi göstərilib.

Naxçıvanda ibadətçilər üçün yeni məscidlər tikilir, mövcud belə ünvanlar müasir standartlar əsasında təmir edilir, müqəddəs yerlərə ziyarətlər təşkil edilir. Müstəqillik illərində muxtar respublikamızda 169 məscid tikilib və ya yenidən qurularaq dindarların ixtiyarına verilib. Nuh Peyğəmbərin türbəsi, "Əshabi-Kəhf" Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksi və 3 imamzadə bərpa edilib. Bu gün muxtar respublika dindarları 214 məsciddən istifadə edir. 2018-ci ildə Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı seçilməsi də bu və digər belə amillərlə bağlıdır.

Qeyd edək ki, digər dini ayinlər kimi Ramazan ayının da islami qaydalara uyğun şəkildə keçirilməsi təmin olunub. Hətta pandemiya dövründə belə dini mərasimlərin icrası müəyyən məhdudiyyətlər nəzərə alınmaqla yerinə yetirildi, Ramazan bayramının da ayinləri məscidlərimizdə ənənəvi İslam qaydalarına uyğun şəkildə icra olundu. Bu ayda iftar süfrələrinin açılması, dindarların bir araya gətirilməsi, şəhid və qazi ailələrinə, ahıl, xəstə və kimsəsizlərə, aztəminatlı ailələrə, əcnəbi vətəndaşlara və xüsusilə də xarici ölkələrdən gələrək muxtar respublikamızda ali təhsil alan tələbələrə Ramazan sovqatlarının verilməsi müqəddəs ayinlərimizin təbliğində mühüm rol oynayır.

Müqəddəs Ramazan ayını müsəlmanlar "on bir ayın sultanı" da adlandırırlar. Ümummilli Liderimiz Heydər Əliyev deyirdi: ***"Ramazan ayı cəmiyyətimizdə həmrəyliyin, dini-mənəvi birliyin möhkəmləndirilməsi işinə xidmət edən, hər bir müsəlmanın, adət-ənənələrimizə riayət edən hər bir insanın qəlbində olan bayramdır. Bizim ənənələrimiz, mənəvi, milli, dini dəyərlərimiz ölməzdir və bundan sonra da yaşayacaqdır".***

Oruc Həzrəti Adəmdən (ə) bəri bütün peyğəmbərlərə və onların ümmətlərinə vacib buyurulmuş qədim ibadətdir. Məsələn, Həzrəti Nuh (ə) bayram günləri istisna olmaqla bütün ilboyu, Həzrəti Davud (ə) isə günaşırı oruc tutarmış. Bu barədə "Qurani-Kərim"də: *"Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, (bunun vasitəsilə) siz pis əməllərdən çəkinəsiniz!" ("əl-Bəqərə", 183)* – deyə bildirilir.

Həzrəti Peyğəmbər (s.a.v) belə buyurub: *"Ramazan ayı gələndə cənnətin qapıları açılır"*. Bu ibadət müsəlmanlara Uca Yaradan tərəfindən hicrətin ikinci ilində – Şaban ayının on üçündə bəxş edilib.

Ramazan ayı müsəlmanlar üçün çox müqəddəs və mübarək aydır. Çünki müqəddəs "Qurani-Kərim" bu ayda nazil olmağa başlayıb, Həzrəti Məhəmmədə (s.a.v) Peyğəmbərlik bəxş edilməklə İslam dini meydana gəlib. İnsanları pis əməllərdən çəkindirən və axirətdə cəhənnəm əzabından qoruyan oruc ibadətinin bu ayda vacib buyurulması "Qurani-Kərim"də də əksini tapıb: *"İnsanlara doğru yolu göstərən, bu yolu açıq dəlilləri ilə aydınlaşdıran və (haqqı batildən) ayıran (Quran) Ramazan ayında nazil edilib. Aya (Ramazan ayına) yetişən şəxslər (bu ayı) oruc tutmalıdırlar; xəstə və ya səfərdə olanlar isə tutmadığı günlərin sayı qədər başqa günlərdə tutsunlar..." (əl-Bəqərə, 185)*

Müasir tibb elmində də orucun faydaları barədə xeyli məlumatlar var. Fransız alimi, Nobel mükafatı qazanmış Aleksi Karel məsələ ilə bağlı fikrini belə bildirmişdir: "Orucluq müddətində orqanizmdə yığılmış qida maddələri işlənir, sonra isə onların yerinə yeniləri gəlir və vücudda təzələnmə baş verir. Bu və digər baxımdan oruc sağlamlıq üçün faydalıdır".

Bu məsələ ilə bağlı Rəsulullah (s.a.v) da hədislərində buyurmuşdur: *"Oruc tutun ki, sağlam olasınız"*.

Həddi-büluğa çatmış, əqli cəhətdən sağlam olan hər müsəlmana oruc vacibdir. Üzrsüz səbəbdən oruc tutmamaq günahdır və cəzası (kəffarəsi) vardır. Kəffarə bir gün biləərəkdən tutulmamış oruca görə iki ay ardıcıl oruc tutmaq və ya altmış yoxsulu doyuzdurmaqdır. Oruc tuta bilməyən əldən düşmüş və yaşlı şəxslər isə Ramazanın hər günü üçün fidyə verirlər. Fidyənin miqdarı fitrə qədərdir.

*Oruc tutmağın məqsədi dini mükəlləfiyyəti icra etməklə Allahın əmrlərindən birini yerinə yetirməkdir. Bununla yanaşı, orucun əxlaqi və ictimai baxımdan da müəyyən fayda və hikmətləri vardır.*

"Şərq qapısı"

## Azərbaycan-türk şəhidlərinin xatirəsi Haçadağda anılıb



*Naxçıvan Muxtar Respublikası Turizm Departamenti və Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi ilə qardaş Türkiyə Respublikasının Araz Təbiət və Azərbaycan Mədəniyyət dərnəyinin bir neçə üzvü Xocalı soyqırımında həyatını itirmiş şəhidlərimizin və Türkiyənin 10 iri regionunda baş vermiş təbii fəlakət nəticəsində dünyasını dəyişmiş insanların xatirəsini anmaq və Haçadağ zirvəsinə qalxmaq məqsədilə Naxçıvan Muxtar Respublikasına səfər edib.*



Səfərin ilk günündə qonaqlar əvvəlcə Ümummilli Liderimiz Heydər Əliyevin şəhərimizin mərkəzi meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstələri qoyub, Ulu Öndərin xatirəsinə ehtiramlarını bildiriblər. Daha sonra görkəmli dövlət xadiminin həyatı, çoxşaxəli fəaliyyətini minə yaxın maddi mədəniyyət nümunələri ilə özündə əks etdirən muzeyə baxış olub. Ekskursiya çərçivəsində qonaqlara məlumat verilib ki, muzey Ümummilli Liderimizin həyat və fəaliyyətinin, ictimai-siyasi, elmi-nəzəri, dövlətçilik irsinin, Azərbaycançılıq məfkurəsinin öyrənilməsi, təbliğ edilməsi və gələcək nəsillərə çatdırılması kimi şərəfli bir vəzifəni həyata keçirir. Muzey, ümumilikdə, Ulu Öndərimizin yaşadığı şərəfli həyat yolunu və amalını əks etdirir. Xüsusilə dahi rəhbər Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasındakı fəaliyyəti – Ali Məclisin sədri kimi gördüyü işlər, həyata keçirdiyi tədbirlər, qəbul etdiyi mühüm əhəmiyyətli qərarlar, sərəncamlar, sənədlər, fotolar, filmlər, albomlar və digər eksponatlar nümayiş etdirilir.



Daha sonra qonaqlar Türkiyə Respublikasının qurucu lideri, görkəmli siyasi xadim Mustafa Kamal Atatürkün şəhərimizdəki abidəsini ziyarət edib, ardınca Şəhidlər xiyabanına ekskursiya olub. Qonaqlar əvvəlcə xiyabanda Türkiyə-Azərbaycan qardaşlığına, birlik və bərabərliyə həsr edilmiş abidənin önünə gül dəstələri qoyublar, həm Çanaqqala zəfərində, həm də torpaqlarımızın azadlığı yolunda canlarından keçmiş şəhidlərimizin xatirəsi yad olunub, onların ruhlarına dualar oxunub.

Dünən isə qonaqlar Haçadağın zirvəsinə qalxıblar. Culfa rayonunun Gal kəndindən start götürülüb və 12 iştirakçı zirvəyə qədər olan 9 kilometrlik məsafəyə 7 saatadək vaxt sərf edilib. İştirakçılar hündürlüyü 2415 metr olan Haçadağın zirvəsində Xocalı faciəsi qurbanlarını, 44 günlük Vətən müharibəsi şəhidlərini və təbii fəlakət nəticəsində dünyasını dəyişmiş insanların xatirəsini yad edib, hər iki ölkənin Dövlət himnləri səsləndirilib.

✍ Məcid RƏŞADƏTOĞLU

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 210